| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 15.02.2016 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 795 |
| **ADI** | “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 17-02-2016, Nəşr nömrəsi: 36), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 29-02-2016, Nəşr nömrəsi: 02, Maddə nömrəsi: 259) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 17.02.2016 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 420.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 13201602150795 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 18.02.2016 |

**“Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun 2016-cı il martın 1-dən tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.3. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 42.2-ci maddəsinə uyğun olaraq inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin siyahısının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.4. həmin Məcəllənin 43.2-ci maddəsinə uyğun olaraq rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin siyahısının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.5. həmin Məcəllənin 45 – 47, 122.1 və 125-ci maddələrinə uyğun olaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi haqqında Əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. dörd ay müddətində:

1.2.1. həmin Məcəllənin 94.10 və 94.11-ci maddələrinə uyğun olaraq inzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş tez xarab olan mallar barəsində sərəncam verilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.2.2. həmin Məcəllənin 100.5 və 114.4-cü maddələrinə uyğun olaraq inzibati xəta haqqında protokolun və səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın (qərardadın) formalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.2.3. həmin Məcəllənin 452.1-ci maddəsinə uyğun olaraq yetkinlik yaşına çatmayanlara dərman vasitələrinin buraxılması qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.2.4. həmin Məcəllənin 94.9-cu maddəsinə uyğun olaraq inzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş odlu silahın, onun patronlarının, digər silahın və döyüş sursatının saxlanılması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. beş ay müddətində:

1.3.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 25.4-cü maddəsini və həmin Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulan cərimə məbləğlərini nəzərə alaraq Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cərimə məbləğlərinin artırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3.2. *Azərbaycan Respublikasının Vergi Məcəlləsi istisna olmaqla, qüvvədə olan digər* normativ hüquqi aktlarda nəzərdə tutulan maliyyə sanksiyalarının ləğv edilməsi və həmin sanksiyaların tətbiqinə əsas olan hüquqpozmalara görə inzibati məsuliyyətin müəyyən edilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;[1]

1.3.3. siqaretin çəkilməsi qadağan olan yerləri müəyyən edən “Tütün və tütün məmulatı haqqında” Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər barədə hər ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Müəyyən edilsin ki:

4.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin *40.0.3, 42.2, 43.1 (birinci, ikinci, üçüncü hallarda), 43.2, 43.3, 76.1-ci maddəsinin ikinci cümləsində, 81-1.1-ci, 81-1.2-ci, 97.1-ci maddələrində, 97.3-cü maddəsinin birinci və*

*üçüncü cümlələrində, 99.1.1-ci maddəsində, 127-1.2-ci (ikinci halda), 127-1.4-cü (ikinci halda), 127-1.6-cı (ikinci halda) və 127-1.8-ci (ikinci halda) maddəsində, 127-2.4-cü maddəsinin birinci cümləsində (birinci və üçüncü hallarda) və ikinci cümləsində, 127-2.6~~, 162.3,~~ ,127-4-cü maddəsinin adında, 127-4.1-ci maddəsinin birinci cümləsində (hər üç halda) və ikinci cümləsində, 127-4.4-cü, 127-4.6-cı, 127-5.1.1-ci, 127-5.1.2-ci, 127-5.1.3-cü (hər iki halda) maddələrində, 127-5.2-ci maddəsinin ikinci cümləsində (hər iki halda), 127-5.3-cü (hər iki halda), 127-6.1-ci maddəsinin ikinci cümləsində, 127-6.3, 150.13-1, 162.3, 162-1.1, 192.3, 231.2, 275.2, 350.2, 354.0.8, 362-3.1, 363.2, 393-1.4, 393-1.6, 394.0.7 (ikinci halda), 394.0.8, 395.1 (ikinci halda) maddələrində, 395-ci maddəsinin "Qeyd" hissəsində (ikinci halda), 395.1-1, ~~421,~~ 428.7.3, 429.0.2, 462.1, 477-1.1.7 (hər iki halda), 477-2.1.2, 538-1.4 – 538-1.6, 540.1, 540.2, 540.3 (hər iki halda)~~, 548.1, 548.2 və 548.3-cü~~* maddələrində, *552-ci maddəsinin adında və mətnində, 562.1-ci, 562.2-ci, 562-1.1-ci, 562-1.2-ci (hər iki halda), 576.3 (hər iki halda), 576.4-cü, 602-2.5-ci (hər iki halda) maddələrində* nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;[2]

~~*4.1-1. həmin Məcəllənin 40.0.3, 421, 429.0.2, 435, 439.1, 439.2 (hər iki halda), 462, 463, 471, 472, 473.2, 473.3, 478-ci maddələrində, 478-ci və 548-ci maddələrinin adlarında, 548.1, 548.2 və 548.3-cü maddələrində "müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum" dedikdə, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası nəzərdə tutulur;*~~[3]

~~*4.1-2. həmin Məcəllənin 471-ci maddəsinin adında və mətnində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası nəzərdə tutulur;*~~[4]

4.2. həmin Məcəllənin 115.4.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirir;

4.3. həmin Məcəllənin 37.6, 56.1, 56.3, 94.9, 94.10, 94.11, 100.5, *114.4-cü maddələrində, 154.1-ci maddəsinin ikinci cümləsində, 156-1.2, 211.2, 212.2,* ~~189.2,~~ 248.1.3, 269.0.6, 290.1.3, 290.1.9-cu*, 307.4-cü* maddələrində, 333-cü maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndində*, 340.1-ci və 393-1.3-cü maddələrində* nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;[5]

*4.3-1. həmin Məcəllənin 162-1.1-ci, 362-3.1-ci, 363.2-ci, 477-2.1.2-ci və 540.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;*[6]

4.4. həmin Məcəllənin 16.4-cü maddəsində, 16-cı maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndində *, 88.1.7-ci, 99.3-1-ci və 114.2.2-ci maddələrində* "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti və Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti nəzərdə tutulur; [7]

4.5. həmin Məcəllənin ~~28.1,~~ 57.3, *59.2-ci maddələrində, 154.1-ci maddəsinin birinci cümləsində, 154.1-1-ci maddəsində (birinci halda), 154.1-2-ci maddəsinin ikinci cümləsində, 154.9*, 168, 395.1-ci *(birinci halda)* maddələrində, 395-ci maddəsinin "Qeyd" hissəsində *(birinci halda)*, 454, 531.1, 531.2 və 608.1-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;[8]

4.6. həmin Məcəllənin 37.3, *163 və 428.4-cü* maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;[9]

*4.6-1. həmin Məcəllənin 162.3, 562.1, 562.2, 562-1.1 və 562-1.2-ci (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;*[10]

4.7. həmin Məcəllənin 40.0.3-cü maddəsində və 44-cü maddəsinin adında və mətnində "müvafiq icra hakimiyyəti orqanları" dedikdə, bu Fərmanın 5-ci hissəsində göstərilmiş inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan Azərbaycan Respublikasının nazirlikləri, dövlət komitələri və digər müvafiq icra hakimiyyəti orqanları, habelə yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

4.8. həmin Məcəllənin 81.2, 110.3-cü maddələrində, 122.1-ci maddəsinin birinci cümləsində, 122.2, 122.5, 123.1, 123.2-ci maddələrində, 124.4-cü maddəsinin birinci və dördüncü cümlələrində, 124.5, 124.6, 125.1, *125.2.3 (birinci halda), 125.3 (ikinci halda)*, 125.6, 126.3, *127-1.1, 127-1.4 (üçüncü halda), 127-1.6-cı (üçüncü halda) maddələrində, 127-2.1-ci maddəsinin ikinci cümləsində, 127-2.2-ci maddəsində, 127-2.4-cü maddəsinin birinci cümləsində (ikinci halda)* və 339.5-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sistemi" dedikdə, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;[11]

4.9. həmin Məcəllənin 87.3, 88.1.1, 96.1.6~~, 97.1-ci maddələrində, 97.3-cü maddəsinin birinci və üçüncü cümlələrində~~ , 97.4, *97.4-1,* 98-ci maddələrində, 124.1-ci maddəsinin ikinci və üçüncü cümlələrində, 125.5, *127-1.2 (birinci halda), 127-1.3, 127-1.4 (birinci halda), 127-1.6 (birinci halda), 127-1.8-ci (birinci halda) maddələrində,* ~~*127-2.4-cü maddəsinin birinci cümləsində (birinci və üçüncü hallarda) və ikinci cümləsində (hər iki halda), 127-2.6*~~, 152.2, 156.2, 327.3, 339.4, 345.2, 352.0.11~~, 354.0.8 (yol hərəkətinin təhlükəsizliyi sahəsində)~~, 428.5, 590.1, 590.2, 592, 597.0.2 və 597.0.3-cü maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;[12]

4.10. həmin Məcəllənin *88.1.2-ci, 295.6-cı və 295.7-ci maddələrində* "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti nəzərdə tutulur;[13]

4.11. həmin Məcəllənin 88.1.4 və 293.6-cı maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi nəzərdə tutulur;

*4.11-1. həmin Məcəllənin 88.1.5-1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti nəzərdə tutulur;*[14]

4.12. həmin Məcəllənin 88.1.6, *150.16,* 155.2, 155.3, 155.5, 578.5 və 578.6-cı maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti nəzərdə tutulur;[15]

4.13. həmin Məcəllənin 92.3-cü*, 550.1-ci, 550.2-ci (ikinci halda) və 550.4-cü maddələrində* "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının *Xüsusi Dövlət Mühafizə Xidməti* nəzərdə tutulur;[16]

4.14. həmin Məcəllənin 122.1-ci maddəsinin ikinci cümləsində, 125.1, 125.2.1, 125.2.2, *125.3*, 125.6 və 339.5-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi" dedikdə, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" sistemi nəzərdə tutulur;[17]

*4.14-1. həmin Məcəllənin 127-4.1-ci maddəsinin ikinci cümləsində, 127-5.1.1-ci, 127-5.1.2-ci maddələrində, 127-5.2-ci maddəsinin ikinci cümləsində (birinci halda), 127-6.1-ci maddəsinin ikinci cümləsində və 127-6.3-cü maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" sistemi nəzərdə tutulur;*[18]

4.15. həmin Məcəllənin *125.2.3 (ikinci halda), 125.4 (birinci halda), 370-1.0.1, 370-1.0.3-cü və 370-2.1-ci maddələrində* "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi* nəzərdə tutulur;[19]

*4.15-1. həmin Məcəllənin 127-1.2-ci (ikinci halda), 127-1.4-cü (ikinci halda), 127-1.6-cı (ikinci halda) və 127-1.8-ci (ikinci halda) maddələrində "müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum" dedikdə, "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi" nəzərdə tutulur;*[20]

*4.15-2. həmin Məcəllənin 127-5.1.3-cü (ikinci halda) və 127-5.3-cü maddəsində (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;*

4.16. həmin Məcəllənin *125.4 və 150.4-cü maddələrində* "müvafiq icra hakimiyyəti orqanlarının informasiya sistemləri" dedikdə, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" sistemi nəzərdə tutulur;[21]

4.17. həmin Məcəllənin 150.11-ci maddəsinin altıncı cümləsində, 150.13-cü maddəsinin dördüncü cümləsində, *154.1-1-ci maddəsində (ikinci halda), 528-1.1-ci maddəsində,* 580-ci maddəsində, 581-ci maddəsinin adında və mətnində, 602.2.1, 602.2.2, 602.2.3-cü maddələrində "müvafiq icra hakimiyyəti orqanı", 549-cu maddəsində isə "bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan" dedikdə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;[22]

*4.17-1. həmin Məcəllənin 150.13-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;*

*4.17-2. həmin Məcəllənin 150.13-1-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Elektron icra" informasiya sistemi nəzərdə tutulur;*[23]

4.18. həmin Məcəllənin 152.3-cü maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (kiçik həcmli gəmilərə münasibətdə) və Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi* (digər gəmilərə münasibətdə) nəzərdə tutulur; [24]

4.19. həmin Məcəllənin 152.4, 234.0.1, 253.3.4, *253-1.1.3, 253-1.2.1,* 269.0.5-ci maddələrində, 541-ci maddəsinin adında və mətnində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;[25]

4.20. həmin Məcəllənin 194-cü maddəsində *195.1-ci, 195.2-ci, 477-ci maddələrində*, 539-cu maddəsinin adında, 539.1, *539.1-1,* 539.2~~, 540.1, 540.2~~ və 556.3-cü maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;[26]

*4.20-1. həmin Məcəllənin 127-4.1-ci (üçüncü halda), 127-4.6-cı, 540.1, 540.3 (hər iki halda), 576.3 (hər iki halda) və 576.4-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;*[27]

*4.20-2. həmin Məcəllənin 76.1-ci maddəsinin ikinci cümləsində, 81-1.1-ci, 81-1.2-ci, 99.1.1-ci maddələrində, 127-4-cü maddəsinin adında, 127-4.1-ci maddəsinin birinci cümləsində (hər iki halda), 127-4.4-cü, 127-5.1.3-cü maddələrində və 127-5.2-ci maddəsinin ikinci cümləsində (ikinci halda) "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi nəzərdə tutulur;*

*4.20-3. həmin Məcəllənin 127-5.3-cü maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" sistemi nəzərdə tutulur.*

~~4.21. həmin Məcəllənin 195.1 və 195.2-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanları" dedikdə, Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;~~ [28]

4.22. həmin Məcəllənin 198.0.9-cu maddəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi nəzərdə tutulur;

*4.22-1. həmin Məcəllənin 213.0.2-ci və 289.0.3-cü maddələrində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;*[29]

*4.22-2. həmin Məcəllənin 219-cu maddəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə, qida məhsullarının istehsalı, qablaşdırılması, saxlanması, emalı, utilizasiyası və məhv edilməsi üçün nəzərdə tutulan müəssisələrin, onların buraxılış komplekslərinin, binalarının, qurğularının layihələndirilməsinə, tikilməsinə, yenidən qurulmasına, təkmilləşdirilməsinə, yeni texnika ilə təchiz olunmasına münasibətdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, digər hallarda isə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;*

4.23. həmin Məcəllənin 231.2-ci maddəsində “ *orqan (qurum)*” dedikdə, Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyi, *tabeliyindəki dövlət qoruqlarının ərazisində yerləşən mədəni sərvətlərə münasibətdə törədildikdə, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Şuşa şəhərinin ərazisində yerləşən mədəni sərvətlərə münasibətdə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi,* “İçərişəhər” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində yerləşən mədəni sərvətlərə münasibətdə isə ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi nəzərdə tutulur;[30]

4.24. həmin Məcəllənin 248.1.1 və 248.1.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi* (Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və rayon (şəhər) icra hakimiyyəti orqanları ilə razılaşdırmaqla) həyata keçirir;[31]

*4.24-1. həmin Məcəllənin 253-1.2.2-ci maddəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə, istifadəsində olan torpaq sahələrinə münasibətdə mərkəzi icra hakimiyyəti orqanları, digər torpaq sahələrinə (bələdiyyə mülkiyyətində olan torpaq sahələri istisna olmaqla) münasibətdə isə yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;*[32]

4.25. həmin Məcəllənin 276.2-ci maddəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə, Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur;

4.26. həmin Məcəllənin *284.1-ci maddəsində* “müvafiq icra hakimiyyəti orqanı” dedikdə, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur; [33]

4.27. həmin Məcəllənin 311 və 394.0.7-ci *(birinci halda)* maddələrində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur; [34]

4.28. həmin Məcəllənin 342.1.9-cu maddəsində “müvafiq icra hakimiyyəti orqanları” dedikdə, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

4.29. həmin Məcəllənin *352.0.1-ci maddəsində* ~~və 552-ci maddəsinin adında və mətnində~~ “müvafiq icra hakimiyyəti orqanı” dedikdə, Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi* nəzərdə tutulur;[35]

*4.29-1. həmin Məcəllənin 552-ci maddəsinin adında və mətnində orqan (qurum)” dedikdə, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya və taksi minik avtomobilləri ilə sərnişindaşımaya münasibətdə ~~isə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ Bakı Nəqliyyat Agentliyi~~, Sumqayıt şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya və taksi minik avtomobilləri ilə sərnişindaşımaya münasibətdə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi, Gəncə şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya və taksi minik avtomobilləri ilə sərnişindaşımaya münasibətdə isə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi~~ nəzərdə tutulur;*[36]

4.30. həmin Məcəllənin 394.0.4, 432.2 *və 515.0.1-ci* maddələrində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi nəzərdə tutulur;[37]

*4.30-1. həmin Məcəllənin 516.0.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirirlər;*[38]

4.31. həmin Məcəllənin 403 və 405-ci maddələrində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə, Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, habelə Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti*, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsi nəzərdə tutulur;[39]

~~4.32. həmin Məcəllənin 421, 429.0.2-ci maddələrində, 548-ci maddəsinin adında, 548.1 və 548.2-ci maddələrində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə, Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi nəzərdə tutulur;~~[40]

4.33. həmin Məcəllənin *43.1-ci maddədə (dördüncü halda)* “müvafiq icra hakimiyyəti orqanı, *429.0.2-ci və 477-1.1.7-ci (hər iki halda) maddələrində “orqan (qurum)”, 602-1.1-ci maddəsində “səlahiyyətli orqan”* dedikdə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;[41]

*4.34. həmin Məcəllənin 43.1 (birinci halda), 394.0.7, 395.1-1 və 428.7.3-cü maddələrində “qurum” dedikdə Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi, Şuşa şəhərinin ərazisində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi,*

*"İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində ~~isə~~ "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Bakı şəhərində yerləşən Dənizkənarı Milli Parkın ərazisinə münasibətdə isə Dənizkənarı Bulvar İdarəsi nəzərdə tutulur;*[42]

*4.34-1. həmin Məcəllənin 428.3-cü maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;*[43]

4.35. həmin Məcəllənin 432.1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

4.36. həmin Məcəllənin 461.1, 461.2-ci maddələrində, 545-ci maddəsinin adında və mətnində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi* nəzərdə tutulur;[44]

4.37. həmin Məcəllənin *411-1.1*~~*, 462 (birinci halda)*~~ *və 465-ci maddələrində* "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;[45]

~~4.38. həmin Məcəllənin 477-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu nəzərdə tutulur;~~[46]

4.39. həmin Məcəllənin 479, 481, 482.3, 484-cü maddələrində, 485-ci maddəsinin adında *, 485.1-ci və 486-cı maddələrində*, 487-ci maddəsinin adında, 487.1 – 487.4, 488 (hər iki halda), 489, 491.2, 491.3, 492.1 və 493-cü maddələrində, 494, 495, 506 və 546-cı maddələrinin adında və mətnində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi nəzərdə tutulur;[47]

4.40. həmin Məcəllənin 516.0.2-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

4.41. həmin Məcəllənin 537-ci maddəsinin adında, 537.1 *, 537.2-ci* ~~*və 538-1.4 – 538-1.6-cı*~~ maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi* nəzərdə tutulur;[48]

*4.41-1. həmin Məcəllənin 538-1.4 – 538-1.6-cı maddələrində "qurum" dedikdə "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxs nəzərdə tutulur;*[49]

4.42. həmin Məcəllənin 542-ci maddəsinin adında və mətnində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Energetika Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

4.43. həmin Məcəllənin 543-cü maddəsinin adında və mətnində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

*4.43-1. həmin Məcəllənin 544.1-ci və 544.2-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, qida məhsulları, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsi hallarında Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, digər hallarda isə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;*

*4.43-2. həmin Məcəllənin 550.2-ci (birinci halda) maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti nəzərdə tutulur.*[50]

4.44. həmin Məcəllənin 555.1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

4.45. həmin Məcəllənin 557.1, 557.2 və 561-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi* nəzərdə tutulur;

4.46. həmin Məcəllənin 558.2-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi, Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi*, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, rayon və şəhər icra hakimiyyəti orqanları nəzərdə tutulur;

~~*4.46-1. həmin Məcəllənin 562-1.1-ci və 562-1.2-ci (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;*~~[51]

*4.46-2. həmin Məcəllənin 562-1.2-ci (ikinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;*[52]

4.47. həmin Məcəllənin 573.1 və 573.2-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanları" dedikdə, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti nəzərdə tutulur;

*4.47-1. həmin Məcəllənin 592-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini*

*Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin rəyləri nəzərə alınmaqla) həyata keçirir;*[53]

*4.47-2. həmin Məcəllənin 596-cı maddəsinin "Qeyd" hissəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti nəzərdə tutulur;*[54]

4.48. həmin Məcəllənin 597.0.1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının ərazisində xarici hüquqi şəxslər, yaxud əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən təsis edilmiş hüquqi şəxslərə, o cümlədən birbaşa və ya dolayı yolla xarici kapitalın iştirakı ilə yaradılmış hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, digər hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

*4.48-1. həmin Məcəllənin 602-1.1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və ya müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi nəzərdə tutulur;*[55]

4.49. həmin Məcəllənin 603.1 – 603.3, 604, 605, 606.2.1 ~~, 606.2.3, 606.3~~ və 609.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli *baş idarə*, idarə, şöbə və bölmələri həyata keçirirlər;[56]

*4.49-1. həmin Məcəllənin 606.2.3-cü və 606.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini öz ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, digər hərbi vəzifəlilərə və çağırışçılara münasibətdə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri həyata keçirirlər;*[57]

*4.50. həmin Məcəllənin 43.1-ci (ikinci və üçüncü hallarda), 395.1-ci maddələrində və 395-ci maddəsinin "Qeyd" hissəsində "qurum" dedikdə Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi nəzərdə tutulur;*[58]

*4.51. həmin Məcəllənin 40.0.3-cü maddəsində "qurum" dedikdə ~~Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası,~~ Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi, Bakı Nəqliyyat Agentliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi nəzərdə tutulur;*[59]

*4.52. həmin Məcəllənin 97.1-ci maddəsində, 97.3-cü maddəsinin birinci cümləsində, 127-2.4-cü maddəsinin birinci cümləsində (birinci və üçüncü hallarda) və ikinci cümləsində, 127-2.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində ~~həmin Məcəllənin 346.1-ci və ya 346.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətanı törətmiş şəxs nəqliyyat vasitəsinin yanında olmadığı və həmin nəqliyyat vasitəsinin yol hərəkəti və piyadaların hərəkətinə maneə yaratdığı hallara münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Bakı Nəqliyyat Agentliyi, habelə~~ həmin Məcəllənin 346-1.5-ci maddəsində nəzərdə tutulmuş hallara münasibətdə isə Bakı Nəqliyyat Agentliyi nəzərdə tutulur;*[60]

*4.53. həmin Məcəllənin 97.3-cü maddəsinin üçüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;*

*4.53-1. həmin Məcəllənin 350.2-ci maddəsində "orqan (qurum)" dedikdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə Bakı Nəqliyyat Agentliyi (svetoforlar və yol nişanlarına münasibətdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəyi nəzərə alınmaqla) nəzərdə tutulur;*[61]

*4.54. həmin Məcəllənin 354.0.8-ci maddəsində "orqan (qurum)" dedikdə yol hərəkətinin təhlükəsizliyi sahəsində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, habelə Bakı şəhərinin inzibati ərazisində Bakı Nəqliyyat Agentliyi, sərnişin və yük daşımaları sahəsində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində sərnişin daşımaya münasibətdə isə Bakı Nəqliyyat Agentliyi nəzərdə tutulur;*[62]

*4.54-1. həmin Məcəllənin 393-1.4-cü və 393-1.6-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu nəzərdə tutulur;*[63]

*4.54-2. həmin Məcəllənin 394.0.8-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi nəzərdə tutulur;*[64]

*4.55. həmin Məcəllənin 462.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ~~və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası~~ nəzərdə tutulur;*[65]

*4.56. həmin Məcəllənin 602-2.5-ci maddəsində (hər iki halda) "orqan (qurum)" dedikdə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur.*[66]

5. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 40.0.3-cü maddəsinə müvafiq olaraq müəyyən edilsin ki:

5.1. həmin Məcəllənin 157, 209, ~~*211,*~~ 212.1, *212.4,* ~~227,~~ 266.3, 266.4, 290.1.1 – 290.1.6, 290.2 (baxılması səlahiyyətlərinə aid edilmiş maddələr üzrə), 306, 322.0.2, *322.0.8,* 323, *326-1,* 327.1 – 327.7, 328 – 331, 332.1 – 332.3, 333.1, *333-1.1,* 334.1, *334-1.1,*335.1 – 335.4, 336, 337.1 – 337.4, 338.1 – *338.5, 338.8, 338.9,* 339.1, *339.1-1,* 342.1.1 – 342.1.8, ~~342.1.10,~~ *342.1.11,* 342.2 – 342.7, 343.1, 343.4, *343.8, 343-1.1, 343-1.5, 343-1.10, 344, 345, 346, 347, 352.0.1, 352.0.3,* 352.0.6, 352.0.11, 352.0.12,

*353.1 – 353.4, 353.6*, ~~354.0.1, 354.0.4~~, 354.0.7, 355 – 358, 428.5, 443.2, *457-1.1.1, 457-1.1.2, 457-1.2*, 510, 513, 514, 517.0.1 – 517.0.6, 517.0.9 – 517.0.13, 520, 521, 523, 524, 563.1, 564, 565, 583 – 586, 588, 589, 590.1, 591 və 593-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi baxır;[67]

~~5.2. həmin Məcəllənin 189.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə yerli icra hakimiyyəti başçısının şəhər, qəsəbə, kənd və ya sahə inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri baxırlar;~~[68]

~~5.3. həmin Məcəllənin 191.2 və 477-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu baxır;~~[69]

5.4. həmin Məcəllənin *191.2-ci, 192.1 – 192.11-ci, 193-cü, 194-cü, 195.2-ci, 198.1-ci, 199 – 203-cü, 205-1.1-ci, 469.2-ci, 477-ci, 477-1.1.2-ci, 477-1.1.4-cü, 477-1.1.5-ci, 477-1.2-ci, 477-2.1-ci,* 539, *540.1, 540.2, 540.3, 540.4,* 556 və 576-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi baxır;[70]

*5.4-1. həmin Məcəllənin 192.12-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və ya Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi baxır;*[71]

~~5.5. həmin Məcəllənin 195.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;~~[72]

5.6. həmin Məcəllənin 210, ~~211,~~ *215.1, 215.4, 215-1, 216–218, 219 (qida məhsullarının istehsalı, qablaşdırılması, saxlanması, emalı, utilizasiyası və məhv edilməsi üçün nəzərdə tutulan müəssisələrin, onların buraxılış komplekslərinin, binalarının, qurğularının layihələndirilməsi, tikilməsi, yenidən qurulması, təkmilləşdirilməsi, yeni texnika ilə təchiz olunması halları istisna olmaqla), 225.1 (qidaların tərkibinə dopinq vasitələri əlavə etməklə onların saxtalaşdırılması və ya satılması halları istisna olmaqla),* 265, *428.4 (bioloji fəallığa malik qida əlavələrinin dərman vasitəsi olmadığı barədə məlumat verilmədən reklam edilməsi halları istisna olmaqla), 428.4-1* və 452-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi baxır;[73]

*5.6-1. həmin Məcəllənin 213.0.1, 213.0.2, 213.0.4 (hamilə qadınlar və analar arasında yayımlanmasına münasibətdə), 219 (qida məhsullarının istehsalı, qablaşdırılması, saxlanması, emalı, utilizasiyası və məhv edilməsi üçün nəzərdə tutulan müəssisələrin, onların buraxılış komplekslərinin, binalarının, qurğularının layihələndirilməsinə, tikilməsinə, yenidən qurulmasına, təkmilləşdirilməsinə, yeni texnika ilə təchiz olunmasına münasibətdə), 220, 225.1 (qidaların tərkibinə dopinq vasitələri əlavə etməklə onların saxtalaşdırılmasına və ya satılmasına münasibətdə), 288, 289, 428.4-cü (bioloji fəallığa malik qida əlavələrinin dərman vasitəsi olmadığı barədə məlumat verilmədən reklam edilməsinə münasibətdə) maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi baxır;*[74]

*5.6-2. həmin Məcəllənin 211-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, sahibkarlıq fəaliyyəti (ictimai iaşə, turizm və mehmanxana (mehmanxana tipli digər obyektlər daxil olmaqla) fəaliyyəti istisna olmaqla) subyektlərinə və onların vəzifəli şəxslərinə münasibətdə, həmçinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, ictimai iaşə sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə və onların vəzifəli şəxslərinə münasibətdə, həmçinin Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, turizm və mehmanxana (mehmanxana tipli digər obyektlər daxil olmaqla) fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərinə və onların vəzifəli şəxslərinə münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi baxır;*[75]

*5.6-3. həmin Məcəllənin 213.0.3, 213.0.4 (tibb müəssisələrində yayımlanmasına münasibətdə), 215.2, 215.3-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə tabeliyindəki tibb müəssisələrinə münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, digər tibb müəssisələrinə münasibətdə isə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi baxır;*[76]

*5.6-4. həmin Məcəllənin 214-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi baxır;*[77]

5.7. həmin Məcəllənin 212.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və ya Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi baxır;

*5.7-1. həmin Məcəllənin 212.5-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi baxır;*[78]

5.8. həmin Məcəllənin 222-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə *Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi* baxır; [79]

5.9. həmin Məcəllənin 223, 224, 225.2 və 226-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi baxır;

5.10. həmin Məcəllənin *233 və 243.0.7-ci* maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;[80]

5.11. həmin Məcəllənin *228,*230, 234, 236 - 242*, 243.0.2*, 243.0.3, 243.0.5, 243.0.6*, 243.0.8, 243.0.9*, 244 (meşə fondu torpaqlarına aid hissəsində)*, 253, 253-1.2 - 253-1.4, 254 - 261*, 264.0.1, 264.0.4, 264.0.6, 264.0.7, 266.1, 266.2, *266.5–266.13*, 269, 271, 273, 274, *275.1 – 275.3*, 291, 292 və 541-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi baxır;[81]

5.12. həmin Məcəllənin 231.1, 480 – 505, 507, 509 və 546-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi baxır;

5.13. həmin Məcəllənin 231.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyi, bu inzibati xətalar *tabeliyindəki dövlət qoruqlarının ərazisində yerləşən mədəni sərvətlərə münasibətdə törədildikdə, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Şuşa şəhərinin ərazisində yerləşən mədəni sərvətlərə münasibətdə törədildikdə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi,* “İçərişəhər” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində yerləşən mədəni sərvətlərə münasibətdə törədildikdə isə ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi baxır;[82]

5.14. həmin Məcəllənin 231.3 və 231.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə mədəni irsə münasibətdə Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyi, təbii irsə münasibətdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, bu inzibati xətalar *tabeliyindəki dövlət qoruqlarının ərazisində yerləşən mədəni sərvətlərə münasibətdə törədildikdə, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Şuşa şəhərinin ərazisində törədildikdə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi,* “İçərişəhər” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində törədildikdə isə ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi baxır;[83]

*5.15. həmin Məcəllənin 232, 283, 284.1, 284.3, 285, 287, 290.1.7 – 290.1.9, 290.2 (baxılması səlahiyyətlərinə aid edilmiş maddələr üzrə), 340.1-ci və 411-2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi baxır;*[84]

5.16. həmin Məcəllənin 235, 243.0.4, 268, 276, 277, 311, 518, 519, 536 və 543-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi baxır;

5.17. həmin Məcəllənin 243.0.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılması tələblərinin pozulması hissəsində Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, yer təkinin və ətraf mühitin mühafizəsi üzrə standartların (normaların, qaydaların) tələblərinin pozulması hissəsində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yer təkinin və ətraf mühitin mühafizəsi üzrə standartların (normaların, qaydaların) tələblərini pozmaqla torpaq və ya qum ehtiyatlarının əldə edilməsinə münasibətdə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi baxır;

5.18. həmin Məcəllənin 244 (meşə fonduna aid olan torpaqlar istisna olmaqla), 245 – 248, 250, 251.2 və 557-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi* baxır;

*5.18-1. həmin Məcəllənin 244-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və ya Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi baxır;*[85]

5.19. həmin Məcəllənin 251.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerquruluşu və kadastr məqsədləri üçün daimi fəaliyyət göstərən geodeziya istinad məntəqələrinin sıradan çıxarılması ilə əlaqədar inzibati xətalar haqqında işlərə isə Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi* baxır;

5.20. həmin Məcəllənin 252-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi baxır;

5.21. həmin Məcəllənin 270.0.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, xüsusi (sahəvi) təyinatlı geodeziya materiallarının və məlumatlarının, avadanlığının və cihazlarının ticarət dövriyyəsinə daxil edilməsi ilə əlaqədar inzibati xətalar haqqında işlərə isə Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi* baxır;

5.22. həmin Məcəllənin 270.0.2 və 270.0.3-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerquruluşu və kadastr məqsədləri üçün daimi fəaliyyət göstərən geodeziya istinad məntəqələrinin korlanması, yaxud məhv edilməsi, yerlərinin dəyişdirilməsi, habelə belə məntəqələrin yenidən qurulması, yaxud yeni məntəqələrin quraşdırılması ilə əlaqədar inzibati xətalar haqqında işlərə isə Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi* baxır;

5.23. həmin Məcəllənin 272-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi baxır;

5.24. həmin Məcəllənin 278-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Energetika Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi fəaliyyət istiqamətlərinə

uyğun olaraq baxırlar;

5.25. həmin Məcəllənin 279 – 282-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Energetika Nazirliyi baxır;

5.26. həmin Məcəllənin *293, 294, 295.1-295.5, 296-299*, 319.6 və 320.6-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi* baxır;[86]

5.27. həmin Məcəllənin 300 – 305, 319.2 – 319.4, 320.2 – 320.4 ~~, 322.0.3 – 322.0.6~~ və 325.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi* baxır;

*5.27-1. həmin Məcəllənin 322.0.3 - 322.0.6-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, taksi minik avtomobilində tütün çəkilməsinə münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə isə ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ Bakı Nəqliyyat Agentliyi baxır;*[87]

*5.27-2. həmin Məcəllənin 322.0.9-cu və 322.0.10-cu maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi baxır;*[88]

5.28. həmin Məcəllənin 307 – 309, 312 – 318, 319.5 və 320.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi* baxır;

5.29. həmin Məcəllənin 310-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə kiçik həcmli gəmilərə münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, digər gəmilərə münasibətdə isə Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi* baxır;

5.30. həmin Məcəllənin ~~319.1, 320.1,~~ 393, *393-1.5, 395.1 (həmin əməlin Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamına verilmiş torpaq sahəsində bu qurumun sərəncamında olduğu müddətdə törədilməsi halları istisna olmaqla), 395.2 (həmin əməlin Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamına verilmiş torpaq sahəsində bu qurumun sərəncamında olduğu müddətdə törədilməsi halları istisna olmaqla)*, 396, ~~397,~~ 400, 455.1 və 587-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanları baxırlar;[89]

*5.30-1. həmin Məcəllənin 319.1 və 320.1-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə isə ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ Bakı Nəqliyyat Agentliyi baxır;*[90]

5.31. həmin Məcəllənin 321 və 570 – 572-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti baxır;

5.32. həmin Məcəllənin ~~322.0.1, 322.0.7, 350.2,~~ 352.0.4, 352.0.5, 352.0.7 – 352.0.10, 354.0.2, 354.0.3 ~~, 354.0.5~~, 354.0.6, *354.0.9* – 354.0.10-cu maddələrində *(bu Fərmanın 5.32-3-cü bəndi nəzərə alınmaqla)* nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya *Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi* baxır;[91]

*5.32-1. həmin Məcəllənin 322.0.1 və 322.0.7-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya və taksi minik avtomobilləri ilə sərnişindaşımaya münasibətdə isə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ Bakı Nəqliyyat Agentliyi baxır;*

*5.32-2. həmin Məcəllənin 350.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə ~~Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ Bakı Nəqliyyat Agentliyi baxır;*[92]

*5.32-3. həmin Məcəllənin 352.0.2-ci, 352.0.8 – 352.0.10-cu, 354.0.2-ci, 354.0.3-cü, 354.0.8 – 354.0.10-cu maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Şuşa şəhərinin ərazisində həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi baxır;*[93]

5.33. həmin Məcəllənin *276-1, 342.1.9, 348, 457-1.1.3 və 457-1.1.4-cü* maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və ya Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi baxır;[94]

*5.33-1. həmin Məcəllənin ~~346,~~ 346-1.2 – 346-1.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Bakı Nəqliyyat Agentliyi baxır;*[95]

*5.33-2. həmin Məcəllənin 346-1.1-ci və 346-1.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə Bakı Nəqliyyat Agentliyi baxır;*[96]

5.34. həmin Məcəllənin 350.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;

*5.34-1. həmin Məcəllənin 352.0.2-ci (bu Fərmanın 5.32-3-cü bəndi nəzərə alınmaqla), 354.0.1-ci və 354.0.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Bakı Nəqliyyat Agentliyi baxır;*[97]

*5.34-2. həmin Məcəllənin 354.0.5-ci və 354.0.8-ci (bu Fərmanın 5.32-3-cü bəndi nəzərə alınmaqla) maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı şəhərinin inzibati ərazisində isə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və ya Bakı Nəqliyyat Agentliyi baxır;*[98]

5.35. həmin Məcəllənin *359 – 362-2, 363.1, 364 – 367*, 380, 459.3 və 459.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi* baxır;[99]

5.36. həmin Məcəllənin *381.8 – 381.11, 381.14* və 428.11-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə *Azərbaycan Respublikasının Audiovizual* Şurası baxır;[100]

*5.36-1. həmin Məcəllənin 381.12 və 381.13-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə audiovizual media subyektlərinə münasibətdə Azərbaycan Respublikasının Audiovizual Şurası, digər media subyektlərinə münasibətdə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi baxır;*[101]

5.37. həmin Məcəllənin 386 və 392-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyi baxır;

5.38. həmin Məcəllənin 389 və 390-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi baxır;

5.39. həmin Məcəllənin 391-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi baxır;

*5.39-1. həmin Məcəllənin 393-1.1-ci və 393-1.3-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 393-1.4-cü və 393-1.6-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və ya Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanları baxırlar;*[102]

5.40. həmin Məcəllənin 394.0.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət *Şəhərsalma* və Arxitektura Komitəsi, *394.0.3-cü, 394.0.4-cü, 394.0.5-ci (tikintisinə icazə tələb olunan açıq məkanda reklam qurğularının tikintisi zamanı tikinti norma və qaydalarının pozulması istisna olmaqla), 394.0.6-cı (tikintisinə icazə tələb olunan açıq məkanda reklam qurğularının istismara verilməsi qaydalarının pozulması istisna olmaqla), 394.0.7-ci (tikintisinə icazə tələb olunan açıq məkanda reklam qurğularının tikintisi işləri ilə bağlı bu Fərmanın 4.34-cü bəndində nəzərdə tutulmuş qurumların göstərişlərinə və qərarlarına əməl edilməməsi istisna olmaqla)* maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, 394.0.1-ci maddəsində nəzərdə tutulmuş lisenziya olmadan tikintisinə icazə tələb olunan və ya barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsi ilə əlaqədar inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət *Şəhərsalma* və Arxitektura Komitəsi, lisenziya olmadan tikintisinə icazə tələb edilən bina və qurğuların mühəndis-axtarış və ya tikinti-quraşdırma işlərinin aparılması ilə əlaqədar inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi baxır;[103]

5.41. həmin Məcəllənin 405-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə kommersiya qurumlarına *və publik hüquqi şəxslərə* münasibətdə Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi*, dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, digər qeyri-kommersiya qurumlarına münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi baxır;[104]

5.42. həmin Məcəllənin 410, 411*, 411-1.1 və 458-ci* maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi baxır;[105]

~~*5.43. həmin Məcəllənin 414–427, 428.8, 428.9, 429, 430.3, 430.4, 433.0.2, 435, 436, 438.1, 440, 463, 468, 470–476, 478 və 548-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası baxır;*~~[106]

*5.44. həmin Məcəllənin 428.1 (bu Fərmanın 5.44-1-ci bəndi nəzərə alınmaqla), 428.2, 428.3, 428.6, 444 (bu Fərmanın 5.44-1-ci bəndi nəzərə alınmaqla), 445, 446, 447.0.1 (bu Fərmanın 5.44-1-ci bəndi nəzərə alınmaqla), 447.0.2 (bu Fərmanın 5.44-1-ci bəndi nəzərə alınmaqla), 447.0.9 (bu Fərmanın 5.44-1-ci bəndi nəzərə alınmaqla), 453 (bu Fərmanın 5.44-1-ci bəndi nəzərə alınmaqla), 544.2-ci (bu Fərmanın 5.44-1-ci bəndi nəzərə alınmaqla) maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi baxır;*[107]

*5.44-1. həmin Məcəllənin 428.1, 444, 447.0.1 (malın (xidmətin) istehlak xüsusiyyətinə və ya keyfiyyətinə dair istehlakçıların aldadılmasına münasibətdə), 447.0.2– 447.0.6, 447.0.9, 453 və 544.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər qida məhsulları ilə, həmçinin baytarlıq və fitosanitar nəzarətində olan yüklərlə bağlı olduqda Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi baxır;*[108]

*5.44-2. həmin Məcəllənin 428-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi baxır;*[109]

5.45. həmin Məcəllənin 430.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi* baxır;

5.46. həmin Məcəllənin 430.2, *449-1, 460,* 461, 467 və 545-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat* Nazirliyi baxır;[110]

*5.47. həmin Məcəllənin 414–427, 428.8, 430.3, 430.4, 433, 435, 436, 438.1, 439, 439-1, 440.1, 440.2, 463, 468, 470, 472–476, 478 və 548-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Mərkəzi Bankı baxır;*[111]

5.48. həmin Məcəllənin 432.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə fiziki şəxslərə və dini qurumlar istisna olmaqla digər qeyri-kommersiya qurumlarına münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, kommersiya hüquqi şəxslərinə *və publik hüquqi şəxslərə* münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi baxır; [112]

5.49. həmin Məcəllənin 432.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi baxır;

5.50. həmin Məcəllənin 432.4-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə qeyri-hökumət təşkilatlarına, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, banklara münasibətdə Azərbaycan Respublikasının *Mərkəzi Bankı* baxır;[113]

~~*5.50-1. həmin Məcəllənin 439-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası və Azərbaycan Respublikasının Mərkəzi Bankı fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;*~~[114]

*5.51. həmin Məcəllənin 447.0.3 – 447.0.6 (bu Fərmanın 5.44-1-ci bəndi nəzərə alınmaqla), 447.0.7, 447.0.8, 537.2 və 538-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi baxır;*[115]

~~5.52. həmin Məcəllənin 447.0.6 – 447.0.8, 537.2 və 538-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi baxır;~~[116]

5.53. həmin Məcəllənin 454 və 455.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanları baxır;

5.54. həmin Məcəllənin 457-ci maddəsində nəzərdə tutulmuş bank fəaliyyəti sahəsində qiymətli metalların və qiymətli daşların uçotu, saxlanılması, mühafizəsi və dövriyyəsi qaydalarının pozulması ilə əlaqədar işlərə Azərbaycan Respublikasının Mərkəzi Bankı, qiymətli metalların və qiymətli daşların hasilatı sahəsində qiymətli metalların və qiymətli daşların uçotu, saxlanılması və mühafizəsi qaydalarının pozulması ilə əlaqədar işlərə Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi*, qalan hallarda qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi qaydalarının, qiymətli metalların və qiymətli daşların, onlardan hazırlanmış məhsulların (məmulatların) mühafizəsi, pərakəndə satışı, uçotu, saxlanılması, onların qırıntılarının və tullantılarının yığılması qaydalarının pozulması ilə əlaqədar işlərə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi baxır;[117]

~~5.55. həmin Məcəllənin 460-cı maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə vergilərə münasibətdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi, *işsizlikdən sığorta və* məcburi dövlət sosial sığorta haqlarına münasibətdə Azərbaycan Respublikasının *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi* baxır;~~[118]

*5.56. həmin Məcəllənin 462-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə bank olmayan kredit təşkilatlarına, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərə, investisiya fondlarına və onların idarəçilərinə, həmçinin sığorta, təkrarsığorta və sığorta vasitəçiliyinə münasibətdə Azərbaycan Respublikasının Mərkəzi Bankı, digər mühasibat uçotu subyektlərinə (kredit təşkilatları, siyasi partiyalar istisna olmaqla) münasibətdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi baxır;*[119]

5.57. həmin Məcəllənin 469.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə ümumi istifadədə olan nəqliyyat vasitələri və taksi minik avtomobilləri sərnişinlərinin icbari fərdi qəza sığortasına münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, *hava, su və dəmiryol nəqliyyatı vasitələri sərnişinlərinin icbari fərdi qəza sığortasına münasibətdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi*, yaşayış binalarının, yaşayış evlərinin və mənzillərin icbari sığortasına münasibətdə Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanları, digər daşınmaz əmlakın icbari sığortasına və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortasına münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi~~*, icbari tibbi sığortaya münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi*~~ baxır;[120]

5.58. həmin Məcəllənin 469.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə standart sığorta müqaviləsi növünə münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, sərhəd sığorta müqaviləsinə və Azərbaycan Yaşıl Kartı növünə münasibətdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi baxır;

*5.58-1. həmin Məcəllənin 429.0.2-ci, 429.0.3-cü, 429.0.4-cü və 477-1.1.7-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi baxır;*[121]

5.59. həmin Məcəllənin 479-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;

5.60. həmin Məcəllənin 517.0.7 və 517.0.8-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;

5.61. həmin Məcəllənin 542-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Energetika Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;

~~5.62. həmin Məcəllənin 550-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının *Xüsusi Dövlət Mühafizə Xidməti* baxır;~~ [122]

5.63. həmin Məcəllənin 555-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;

5.64. həmin Məcəllənin *391-1 və 562.3-cü maddələrində* nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi baxır; [123]

5.65. həmin Məcəllənin 566-cı maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi *(Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin şəxsiyyət vəsiqələrinə münasibətdə),* Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti (Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün *icazə vəsiqələrinə münasibətdə*) və Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi* (dənizçinin şəxsiyyət sənədinə aid hissədə) baxırlar; [124]

5.66. həmin Məcəllənin 575 və 577-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti fəaliyyət istiqamətlərinə uyğun olaraq baxırlar;

5.67. həmin Məcəllənin 578-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti baxır;

5.68. həmin Məcəllənin 579 – 582-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi baxır;

5.69. həmin Məcəllənin 597-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının ərazisində xarici hüquqi şəxslər, yaxud əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən təsis edilmiş hüquqi şəxslərə, o cümlədən birbaşa və ya dolayı yolla xarici kapitalın iştirakı ilə yaradılmış hüquqi şəxslərə (onların vəzifəli şəxslərinə və mühafizəçilərinə) münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, digər hüquqi şəxslərə (onların vəzifəli şəxslərinə və mühafizəçilərinə) münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi baxır;

~~*5.70. həmin Məcəllənin 598-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası (kredit təşkilatlarına, lizinq xidmətləri göstərən hüquqi şəxslərə, investisiya şirkətlərinə, investisiya fondlarına və onların idarəçilərinə, sığortaçı, təkrarsığortaçı və sığorta vasitəçilərinə, pul vəsaitlərinin köçürülməsi ilə məşğul olan poçt xidməti göstərən müəssisələrə və valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslərə münasibətdə), Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti (lombardlara münasibətdə), Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (öz fəaliyyətinin tərkib hissəsi kimi vəsait alan, toplayan, verən və ya vəsait köçürən qeyri-hökumət təşkilatlarına, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinə münasibətdə) və Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (öz fəaliyyətinin tərkib hissəsi kimi vəsait alan, toplayan, verən və ya vəsait köçürən dini təşkilatlara münasibətdə) baxırlar;*~~ [125]

*5.70-1. həmin Məcəllənin 602-1-ci (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən törədilən inzibati xətalar istisna olmaqla) maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi baxır;* [126]

~~*5.70-2. həmin Məcəllənin 598-ci (monitorinqdə iştirak edən digər şəxslərə münasibətdə) maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə aşağıdakılar baxırlar:*~~ ~~[127]~~

~~*5.70-2.1. notariuslara münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi;*~~

~~*5.70-2.2. hüquq xidmətləri, mühasibat və vergi məsləhəti xidmətləri göstərən digər şəxslərə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi;*~~

~~*5.70-2.3. qiymətli daşların, qiymətli metalların, o cümlədən qiymətli daşlardan və ya qiymətli metallardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının alqı-satqısı ilə məşğul olan şəxslərə münasibətdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi;*~~

~~*5.70-2.4. lotereya təşkilatçılarına və idman mərc oyunları operatorlarına münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi;*~~ ~~[128]~~

~~*5.70-2.5. daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən şəxslərə münasibətdə Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti;*~~

5.71. *bu Fərmanın 5.72-ci bəndi nəzərə alınmaqla* həmin Məcəllənin 604, 606.2, 606.3 və 607-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə

Dövlət Xidməti baxır;[129]

*5.72. həmin Məcəllənin 606.2.3-cü, 606.3-cü və 607-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə öz ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti baxır.*

6. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 43.1-ci maddəsində göstərilən inzibati xətalar haqqında işlərə baxmaq hüququ bu Fərmanla həmçinin səlahiyyətli orqanlara aid edildikdə, icraatında inzibati xətalar haqqında iş olan səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati xətanın xarakterini, inzibati xəta törədənin şəxsiyyətini, onun təqsirinin dərəcəsini, məsuliyyəti ağırlaşdıran halların və müsadirə olunmalı malların mövcudluğunu nəzərə alaraq, şəxs barəsində müvafiq maddənin sanksiyasında nəzərdə tutulan xəbərdarlıq və ya cərimə inzibati tənbeh tədbirlərindən daha ağır tənbeh tədbirinin tətbiqi üçün əsasların olması qənaətinə gəldikdə, inzibati xəta haqqında protokolu baxılmaq üçün məhkəməyə göndərir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 fevral 2016-cı il
795

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 17 mart 2016-cı il tarixli **839** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 19 mart 2016-cı il, 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 03, maddə 460)**
2. 20 aprel 2016-cı il tarixli **865** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 24 aprel 2016-cı il, 87 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 4, maddə 670)**
3. 1 iyun 2016-cı il tarixli **929** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 4 iyun 2016-cı il, 119, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1025)**
4. 23 iyun 2016-cı il tarixli **967** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 29 iyun 2016-cı il, 138 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1063)**
5. 18 iyul 2016-cı il tarixli **1001** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 20 iyul 2016-cı il, 154 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 7, maddə 1272)**
6. 6 sentyabr 2016-cı il tarixli **1031** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 07 sentyabr 2016-cı il, 196 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1468)**
7. 4 oktyabr 2016-cı il tarixli **1055** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 5 oktyabr 2016-cı il, 218, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 10, maddə 1614 )**
8. 20 oktyabr 2016-cı il tarixli **1079** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 21 oktyabr 2016-cı il, 232 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 10, maddə 1638)**
9. 10 fevral 2017-ci il tarixli **1232** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 11 fevral 2017-ci il, 31 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 2, maddə 176)**
10. 23 fevral 2017-ci il tarixli **1258** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 25 fevral 2017-ci il, 43; " Xalq" qəzeti, 03 mart 2017-ci il, 48, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 2, maddə 202 )**
11. 2 mart 2017-ci il tarixli **1273** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 4 mart 2017-ci il, 49, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 351 )**
12. 5 aprel 2017-ci il tarixli **1316** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 7 aprel 2017-ci il, 71 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 530)**
13. 5 aprel 2017-ci il tarixli **1323** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 7 aprel 2017-ci il, 71 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 537)**
14. 21 iyun 2017-ci il tarixli **1485** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 25 iyun 2017-ci il, 136, " Xalq" qəzeti, 4 iyul 2017-ci il, 140, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 6, maddə 1101 )**
15. 11 iyul 2017-ci il tarixli **1504** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 12 iyul 2017-ci il, 147 , "Xalq" qəzeti, 22 iyul 2017-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, maddə 1314 )**
16. 19 iyul 2017-ci il tarixli **1536** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 20 iyul 2017-ci il, 154, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, maddə 1346)**
17. 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521)**
18. 6 sentyabr 2017-ci il tarixli **1590** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 7 sentyabr 2017-ci il, 193 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 9, maddə 1637)**
19. 5 oktyabr 2017-ci il tarixli **1621** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 6 oktyabr 2017-ci il, 218 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10, maddə 1788 )**
20. 10 oktyabr 2017-ci il tarixli **1631** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 11 oktyabr 2017-ci il, 222 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10, maddə 1798)**
21. 6 noyabr 2017-ci il tarixli **1664** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 7 noyabr 2017-ci il, 245 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2003)**
22. 21 noyabr 2017-ci il tarixli **1688** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 22 noyabr 2017-ci il, 257 ,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11 , maddə 2027)**

23. 14 dekabr 2017-ci il tarixli **1722** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 17 dekabr 2017-ci il, 279, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2290)**

24. 22 dekabr 2017-ci il tarixli **1752** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 24 dekabr 2017-ci il, 285 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab, maddə 2320)**

25. 11 yanvar 2018-ci il tarixli **1780** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 12 yanvar 2018-ci il, 7 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, maddə 36)**

26. 20 fevral 2018-ci il tarixli **1834** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 23 fevral 2018-ci il, 42 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 198)**

27. 20 fevral 2018-ci il tarixli **1837** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 23 fevral 2018-ci il, 42 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 201)**

28. 6 mart 2018-ci il tarixli **1868** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 7 mart 2018-ci il, 52 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 418)**

29. 7 mart 2018-ci il tarixli **1878** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 mart 2018-ci il, 53 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 428)**

30. 19 mart 2018-ci il tarixli **1893** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 24 mart 2018-ci il, 65 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 443 )**

31. 29 mart 2018-ci il tarixli **1895** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 31 mart 2018-ci il, 71 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 44 5)**

32. 7 may 2018-ci il tarixli **46** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 11 may 2018-ci il, 105 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 914)**

33. 10 may 2018-ci il tarixli **58** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 13 may 2018-ci il, 107 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 926 )**

34. 10 may 2018-ci il tarixli **50** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 13 may 2018-ci il, 107 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 918 )**

35. 22 may 2018-ci il tarixli **87** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 22 may 2018-ci il, 115 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 955)**

36. 11 iyun 2018-ci il tarixli **135** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq"** qəzeti, **12 iyun 2018-ci il, 131 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1225)**

37. 25 iyun 2018-ci il tarixli **144** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 26 iyun 2018-ci il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1234)**

38. 6 iyul 2018-ci il tarixli **179** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 11 iyul 2018-ci il, 151 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1465)**

39. 10 iyul 2018-ci il tarixli **191** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, 154, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1477)**

40. 16 iyul 2018-ci il tarixli **208** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 20 iyul 2018-ci il, 159 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1494)**

41. 30 iyul 2018-ci il tarixli **218** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 31 iyul 2018-ci il, 168 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1504)**

42. 29 avqust 2018-ci il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 30 avqust 2018-ci il, 192, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1697)**

43. 1 avqust 2018-ci il tarixli **228** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1678)**

44. 19 sentyabr 2018-ci il tarixli **277** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9 , maddə 1840)**

45. 7 noyabr 2018-ci il tarixli **331** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 11 noyabr 2018-ci il, 254, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2244)**

46. 15 noyabr 2018-ci il tarixli **343** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 18 noyabr 2018-ci il, 260, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2256)**

47. 23 noyabr 2018-ci il tarixli **360** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 24 noyabr 2018-ci il, 265 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2273 )**

48. 27 noyabr 2018-ci il tarixli **376** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2289)**

49. 10 dekabr 2018-ci il tarixli **384** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 14 dekabr 2018-ci il, 282 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2541 )**

50. 18 dekabr 2018-ci il tarixli **409** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 19 dekabr 2018-ci il, 286 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2566)**

51. 20 dekabr 2018-ci il tarixli **416** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 26 dekabr 2018-ci il, 292 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2573)**

52. 28 dekabr 2018-ci il tarixli **453** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 30 dekabr 2018-ci il, 296 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2610)**

53. 10 yanvar 2019-cu il tarixli **462** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 11 yanvar 2019-cu il, 7 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 1, maddə 52)**

54. 16 yanvar 2019-cu il tarixli **478** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 19 yanvar 2019-cu il, 14 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 1, maddə 68)**

55. 12 mart 2019-cu il tarixli **586** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 15 mart 2019-cu il, 60 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 426**)

56. 1 aprel 2019-cu il tarixli **602** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 aprel 2019-cu il, 70 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 602**)

57. 15 aprel 2019-cu il tarixli **630** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 630**)

58. 3 may 2019-cu il tarixli **673** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 5 may 2019-cu il, 98 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 825**)

59. 16 may 2019-cu il tarixli **694** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 18 may 2019-cu il, 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 846**)

60. 17 may 2019-cu il tarixli **700** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 18 may 2019-cu il, 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 852**)

61. 14 iyun 2019-cu il tarixli **743** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 20 iyun 2019-cu il, 131 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 1035**)

62. 25 iyun 2019-cu il tarixli **755** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 29 iyun 2019-cu il, 138, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 1046**)

63. 21 avqust 2019-cu il tarixli **813** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 23 avqust 2019-cu il, 183 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1395**)

64. 26 avqust 2019-cu il tarixli **819** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 27 avqust 2019-cu il, 186 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1401**)

65. 12 noyabr 2019-cu il tarixli **852** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 13 noyabr 2019-cu il, 251 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1700**)

